Azərbaycan Respublikasının Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının

# 2011-ci ildəki fəaliyyəti haqqında

# H E S A B A T

**Bakı 2012**

# MÜNDƏRİCAT

**Giriş ........................................................................ 3**

**QHT-lərə göstərilən dövlət dəstəyinin əsas istiqamətləri**

- **Məlumat dəstəyi................................................... 3**
- **Konsultativ dəstək .............................................. 4**
- **Metodiki dəstək ................................................... 6**
- **Təşkilati-texniki dəstək ....................................... 6**
- **Maliyyə dəstəyi ................................................... 8**

**Cari fəaliyyət**

- **Şuranın iclasları ..................................................... 10**
- **Qanunvericiliyin təkmilləşdirilməsi.................... 11**
- **Digər tədbirlər ....................................................... 11**

**Beynəlxalq əlaqələr**

- **Görüşlər.................................................................. 12**
- **Səfərlər................................................................... 13**
- **Tərəfdaşlıq.............................................................. 14**

**Yekun........................................................................ 15**

## Giriş

Azərbaycanda dövlət və vətəndaş cəmiyyəti qurumları arasında münasibətlər uğurla inkişaf edir və bu münasibətlər artıq əməkdaşlıq mərhələsinə qədər yüksəlmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 iyul 2007-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası"nın təsdiq edilməsi və həmin ilin dekabrında Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının (bundan sonra Şura) yaradılması ölkəmizdə QHT sektorunun bu yeni inkişaf mərhələsinin əsasını qoydu. Belə ki, dövlət başçısının qəbul etdiyi bu mühüm və tarixi qərarlardan sonra QHT-lərin ictimai əhəmiyyətli təşəbbüslərini dəstəkləmək üçün ilk dəfə dövlət büdcəsindən maliyyə ayrıldı, QHT-hökumət münasibətləri yeni müstəviyə keçdi və vətəndaş cəmiyyətinin güclənməsi naminə ictimai sektorun bütün potensialının səfərbər olunması baxımından yeni imkanlar əldə edildi.

Son dövrlərdə ayrı-ayrı dövlət qurumlarının nəzdində milli QHT-lərin təmsilçiliyi ilə ictimai şuraların yaradılması dövlət qurumlarının işində şəffaflığın artırılmasında, korrupsiya ilə mübarizənin effektiv təşkilində və qəbul olunan qərarlarda vətəndaş iştirakçılığının təmin olunmasında böyük rol oynayır.

Azərbaycanda vətəndaş cəmiyyəti özünün dinamik inkişaf mərhələsini yaşayır. Ölkəmizin getdikcə artan siyasi nüfuzu və iqtisadi qüdrəti bütün ictimai qurumların, o cümlədən vətəndaş cəmiyyəti institutlarının da fəaliyyətinə böyük vüsət verir. Artıq dördüncü ildir ki, ölkə QHT-lərinin layihə və proqramlarına dövlət büdcəsindən maliyyə yardımı ayrılır, bu qurumların bütün potensialı cəmiyyətimiz üçün mühüm əhəmiyyət kəsb edən ictimai, sosial, mədəni məsələlərin həllinə yönəldilir. Azərbaycan QHT-lərinin fəaliyyət imkanları genişlənir, onların beynəlxalq əməkdaşlıq əlaqələri möhkəmlənməkdə davam edir.

Konsepsiyada və Şuranın əsasnaməsində təsbit edilmiş dövlət dəstəyinin əsas prinsip və formalarına uyğun olaraq, 2011-ci ildə qeyri-hökumət təşkilatları ilə əməkdaşlıqda onların ən müxtəlif təşəbbüsləri dəstəklənmiş və ölkədə vətəndaş cəmiyyətinin inkişafı məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir.

# QHT-lərə göstərilən dövlət dəstəyinin əsas istiqamətləri

- ## Məlumat dəstəyi

Şuranın, eləcə də ölkə QHT-lərinin fəaliyyəti barədə ictimaiyyəti məlumatlandırmaq, qeyri-hökumət təşkilatlarının inkişaf dinamikasını, yerinə yetirilən layihələrin icra vəziyyətini və nəticələrini işıqlandırmaq məqsədilə Şuranın 2008-ci ildə təsis etdiyi aylıq **"Vətəndaş cəmiyyəti"** jurnalının nəşri uğurla davam etdirilmişdir. 2011-ci ildə jurnalın 12 nömrəsi işıq üzü görmüşdür. İl ərzində jurnalda Şura və digər donorlar tərəfindən maliyyələşdirilmiş 600-dən çox layihə haqqında müfəssəl informasiya, məqalə və müsahibə verilmiş, bütövlükdə ölkə QHT-lərinin fəaliyyəti izlənmiş, QHT qanunvericiliyi, QHT-hökumət münasibətləri və başqa vacib mövzular üzrə araşdırmalar aparılmışdır. Azərbaycan QHT-lərinin Məsuliyyət Xartiyası, "QHT fəaliyyətinin keyfiyyət standartları və sertifikatlaşdırma modeli"nin layihə variantı və başqa vacib sənədlər dərc edilmişdir.

Keçən ildə olduğu kimi, bu il də QHT-lərin fəaliyyəti haqda silsilə televiziya verilişləri hazırlanmışdır. Şura ilə İctimai Televiziyanın reallaşdırdığı birgə layihə çərçivəsində Şuranın maliyyə yardımı müsabiqəsinin nəticələrinə, Şuranın turizm mövzusunda maliyyələşdirdiyi

layihələrin yekunlarına həsr olunmuş verilişlər hazırlanaraq efirə verilmişdir. Şuranın və ayrı-ayrı QHT-lərin maliyyələşən layihələr çərçivəsində həyata keçirdiyi tədbirlər ölkənin digər televiziya kanalları tərəfindən də il ərzində işıqlandırılmışdır.

QHT həyatına onlayn informasiya dəstəyinin verilməsi məqsədilə Şuranın hər gün yenilənən www.qhtxeber.az saytı da il ərzində öz fəaliyyətini davam etdirmişdir. Saytda ölkənin ictimai sektoruna aid praktiki və nəzəri məsələlər işıqlandırılmışdır. Saytda QHT-lərin fəaliyyətini əks etdirən bütün növ xəbərlər, elanlar, hesabatlar yeni dizaynda yerləşdirilir, QHT qanunvericiliyi, donor fəaliyyəti, QHT-lərin koalisiya və beynəlxalq əməkdaşlığı haqqında materiallar ictimai müzakirəyə çıxarılır. Bundan başqa, Şura və onun fəaliyyəti haqqında ətraflı məlumat əldə etmək üçün təşkilatın Azərbaycan və ingilis dillərində rəsmi saytı www.cssn.gov.az fəaliyyət göstərir. İl ərzində Şuranın fəaliyyəti və keçirdiyi ayrı-ayrı tədbirlər haqqında mətbuata 85 press-reliz göndərilmişdir.

2011-ci ildə Şura haqda məlumat-informasiya bukletinin yeni forması nəfis tərtibatda hazırlanaraq Azərbaycan və ingilis dillərində çap olunmuşdur. Bukletdə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Konsepsiyası və bu Konsepsiyanın təsdiq edilməsi haqda Azərbaycan Respublikası Prezidentinin sərəncamı, Şuranın Əsasnaməsi və Şuranın yaradılması haqqında Prezident Fərmanı, Şura üzvləri və onların təyin olunması haqqında Prezidentin Sərəncamı, Şuranın göstərdiyi dövlət dəstəyinin əsas istiqamətləri, layihələrin qiymətləndirilməsi qaydaları və meyarları haqqında məlumatlar verilmişdir.

Azərbaycanın dövlət müstəqilliyinin 20 illik yubileyi münasibətilə Şura "Azərbaycan QHT sektoru dövlət müstəqilliyinin 20 ilində" kitabını nəşr etmişdir. Kitab Azərbaycan qeyri-hökumət təşkilatlarının yaranmasında və inkişafında xüsusi xidmətləri olmuş nüfuzlu dövlət məmurları, Milli Məclis deputatları və tanınmış QHT rəhbərlərinin məqalə və müsahibələrindən ibarət toplu halında tərtib edilmişdir. Təqdim olunan materiallarda QHT sektorunun formalaşması və inkişafının ayrı-ayrı mərhələləri təhlil edilmiş, 20 illik dövlət müstəqilliyi dövründə bu sahədə əldə olunmuş nailiyyətlərə nəzər yetirilmişdir.

Şura tərəfindən maliyyələşdirilən layihələrin böyük əksəriyyətinin icrası artıq başa çatmışdır. Şuranın 2011-ci ildə maliyyələşdirdiyi layihələrə həsr olunmuş kitabın çapına hazırlıq məqsədilə yekun hesabatlar əsasında materiallar hazırlanmış və kitab çap olunaraq 2012-ci ilin yanvar ayında ictimaiyyətə təqdim edilmişdir.

- ## Konsultativ dəstək

Şuranın 2011-ci ildə elan etdiyi maliyyə yardımı müsabiqəsinin istiqamətləri, şərtləri, qaydaları və digər sahələrdə dövlət dəstəyinin alınması imkanları barədə ölkə QHT-lərini məlumatlandırmaq, onları maraqlandıran məsələlərə aydınlıq gətirmək məqsədilə mütəmadi olaraq **konsultativ sessiyalar** təşkil edilmiş və bu sessiyalarda 250-dən çox QHT-yə müxtəlif məsləhətlər verilmişdir.

«Mühasibat uçotu haqqında» Azərbaycan Respublikası Qanununun 13.2-ci maddəsinə uyğun olaraq, qeyri-hökumət təşkilatları 2010-cu ildən etibarən Qeyri-Hökumət Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun tərtib edilmiş formada illik maliyyə hesabatı hazırlamalı və aprel ayının 1-dək Maliyyə Nazirliyinə təqdim etməlidirlər. Hesabatı vaxtında təqdim etməyənlər və ya səhv hesabat təqdim edənlər üçün Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 247-1-ci maddəsi ilə yüksək cərimə sanksiyaları müəyyənləşdirilmişdir. Ötən ildə olduğu kimi, 2011-ci ildə də Şura göstərilən qanunun icrasına, habelə QHT-lərin bu

sahədə üzləşdiyi çətinliklərin aradan qaldırılmasına kömək məqsədilə hesabatların tərtibi və təqdim edilməsi işində QHT-lərə köməklik göstərmişdir.

**15 fevral 2011-ci ildən etibarən** Şura tərəfindən (Bakı şəhərində, Şuranın ofisində: F. Əmirov küç.1, 2-ci mərtəbə) iş günlərində QHT-lərə məsləhət xidməti təşkil edilmişdir.

**22 fevral 2011-ci ildə** MQF Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzində bu mövzuda təlim keçirilmişdir. Təlimdə Qəbələ, Oğuz, Şəki, Qax, Balakən, Zaqatala, İsmayıllı və Göyçay rayon qeyri-hökumət təşkilatlarının 20-dən artıq nümayəndəsi iştirak etmişdir.

**24 fevral 2011-ci ildə Mingəçevirdə** keçirilən təlimdə Goranboy, Tərtər, Ağdam, Bərdə, Yevlax, Beyləqan, Zərdab, Kürdəmir, Ucar, Ağcabədi, Füzuli rayonlarının və yerli qeyri-hökumət təşkilatlarının rəhbərləri və mühasibləri iştirak etmişlər.

**03 mart 2011-ci ildə Qubada** keçirilən təlimdə Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonunda fəaliyyət göstərən QHT-lərin 21 nəfər nümayəndəsi iştirak etmişdir

**11 mart 2011-ci ildə Şirvan** şəhərində təşkil olunan təlimdə Masallı, Cəlilabad, Biləsuvar, İmişli, Saatlı, Sabirabad, Salyan, Füzuli rayonlarında və Şirvan şəhərində fəaliyyət göstərən QHT-lərin 20-dən artıq nümayəndəsi iştirak etmişlər.

**18 mart 2011-ci ildə** eyni mövzuda olan təlimlər Gəncə şəhərində keçirilmişdir. Təlimdə Şəmkir RQRTM-in əhatə dairəsinə daxil olan Gəncə şəhər və Gədəbəy, Tovuz, Ağstafa, Qazax, Daşkəsən, Göygöl rayonlarında fəaliyyət göstərən QHT-lərin rəhbərləri və mühasibləri iştirak etmişdilər.

2011-ci ildə Maliyyə Nazirliyinə hesabat təqdim etmiş 500-dən çox QHT-nin hesabatlarında bəzi səhvlərə yol verilmişdir. Bu haqda məlumatlar və həmin QHT-lərin siyahısı Şuranın elektron informasiya vasitələrində yerləşdirilmişdir. Bu səhvlərin aradan qaldırılması və hesabatların yenidən tərtib olunmasında Şura katibliyi QHT-lərə məsləhət xidməti təşkil etmiş, praktik köməkliklər göstərmişdir.

Şuranın 2011-ci ildə maliyyələşdirdiyi layihələrin aralıq dövr üçün icra vəziyyəti ilə bağlı Şura katibliyi silsilə müzakirələr keçirmişdir:

- **21 iyun 2011-ci ildə** sosial məsələlərə dair təşəbbüslər,
- **22 iyun 2011-ci ildə** səhiyyə məsələləri və ətraf mühitin mühafizəsinə dair təşəbbüslər,
- **23 iyun 2011-ci ildə** təhsil məsələlərinə dair təşəbbüslər,
- **24 iyun 2011-ci ildə** insan hüquqları və demokratiya istiqaməti üzrə,
- **29 iyun 2011-ci ildə** mədəniyyətə dair təşəbbüslər,
- **30 iyun 2011-ci ildə** Azərbaycanın ərazi bütövlüyünün bərpası və erməni təcavüzündən zərər çəkənlərin hüquqlarının beynəlxalq səviyyədə qorunması istiqamətində təşəbbüslər üzrə maliyyələşdirilmiş layihələrin icra vəziyyəti geniş müzakirə edilmişdir.

2011-ci il ərzində Şura QHT-lər üçün ümumilikdə dörd maliyyə yardımı müsabiqəsi elan etmişdir. Katiblik Şuranın 2011-ci ilin növbəti maliyyə yardımı müsabiqəsində maliyyələşdirdiyi layihələrin icrasının hazırlıq mərhələsinə həsr olunmuş müzakirələr təşkil etmişdir:

- **27 sentyabr 2011-ci ildə** "Dövlət rəmzlərinin təbliğinə dair təşəbbüslər" və "İctimai davranış qaydalarının təkmilləşməsinə dair təşəbbüslər";
- **28 sentyabr 2011-ci ildə** "Azərbaycanla əlaqədar xarici ölkələrdə tədbirlərin təşkili", "Ailə institutunun güclənməsinə dair təşəbbüslər";
- **30 sentyabr 2011-ci ildə** "Gənclərin İKT imkanlarından daha səmərəli istifadə etməsinə dair təşəbbüslər" üzrə maliyyələşdirilmiş layihələrin icra vəziyyəti müzakirə edildi.

Müzakirələrdə Şura katibliyinin əməkdaşları layihələrin icra vəziyyəti ilə bağlı uğurlu cəhətləri, yerinə yetirilmiş bu layihələrin cəmiyyət üçün daşıdığı ictimai, sosial əhəmiyyəti qeyd etmiş, həmçinin, layihələrin icrası və hesabatların təqdim olunmasında baş vermiş nöqsanlar haqqında da danışmışlar. Nöqsanların aradan qaldırılması üçün layihə rəhbərlərinə təlimatlar

verilmişdir. Müzakirələrdə çıxış edən QHT və layihə rəhbərləri layihələrin icrası ilə bağlı öz fikir və təkliflərini bildirmişlər.

Şura 2012-ci il maliyyə yardımı müsabiqəsinə hazırlıq məqsədilə müsabiqə mövzularını ölkə QHT-lərinin iştirakı ilə geniş müzakirə etmişdir. Bu məqsədlə **16 noyabr 2011-ci ildə** Beynəlxalq Mətbuat Mərkəzində konfrans keçirildi. Konfransda çıxış edən QHT rəhbərləri növbəti ildə Şuranın maliyyələşdirəcəyi istiqamətlər və ayrı-ayrı mövzular barədə öz fikir və təkliflərini bildirdilər. Təklifləri Şuraya, həmçinin, yazılı şəkildə təqdim etmək üçün QHT-lərə vaxt verildi. Təkliflərin Şura Katibliyi tərəfindən öyrənilməsi və onların vaciblərinin maliyyələşdiriləcək istiqamətlər üzrə mövzulara əlavə edilməsi tövsiyə olundu.

- ## Metodiki dəstək

İl ərzində QHT-lərin yeni hüquqi-normativ sənədlərlə tanışlığı və təminatı məqsədilə metodiki vəsaitlər nəşr edilərək yayılmışdır. Qeyri-hökumət təşkilatlarının maliyyə-təsərrüfat fəaliyyəti üzrə əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq təsdiq edilmiş qeyri-hökumət təşkilatları üçün Milli Mühasibat Uçotu Standartı ilə tənzimlənir. Bu məqsədlə "Qeyri-hökumət təşkilatları üçün Milli Mühasibat Uçotu Standartı" kitabı hazırlanmışdır. Kitabda "Qeyri-hökumət təşkilatları üçün Milli Mühasibat Uçotu Standartı"nın tələblərinə uyğun olaraq hazırlanmış hesablar planı, maliyyə hesabatlarının formaları və bu hesabatların tərtibi ilə bağlı mühasibat uçotunun aparılması qaydası verilmişdir.

Şuranın dəstəyilə QHT-lər üçün "Fərdi əmək mübahisələri" metodik vəsaiti hazırlanmışdır. Kitabçada fərdi əmək mübahisələrinin həlli qaydaları, fərdi əmək mübahisələrinin məhkəmə vasitəsilə həlli yolları, fərdi əmək mübahisələrinin məhkəmədən kənar vasitələrlə həlli yolları mövcud qanunvericiliyə müvafiq olaraq öz əksini tapmışdır.

- ## Təşkilati-texniki dəstək

QHT fəaliyyətinin qanunauyğun və beynəlxalq standartlara uyğun şəkildə qurulması, QHT təmsilçilərinin idarəçilik qabiliyyətinin artırılması, QHT-lərdə kargüzarlıq işlərinin və mühasibat uçotunun qanunun tələblərinə uyğun aparılması, bu sahədə milli QHT-lərin bilik və bacarıqlarının artırılması Şuranın qarşısında duran başlıca vəzifələrdən biridir. Bu məqsədlə 2011-ci ildə QHT sektorunun gələcək inkişafına hesablanmış bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Milli Məclisinin 11 fevral 2011-ci il tarixli iclasında "Auditor xidməti haqqında" Qanuna edilmiş dəyişikliklər nəticəsində məcburi auditdən yayınma ilə əlaqədar İnzibati Xətalar Məcəlləsinə yeni 247-3-cü maddə əlavə edilmişdir. Bu maddənin tələblərinə uyğun olaraq, qanunda nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan məcburi auditdən yayınmağa görə vəzifəli şəxslərə 300 manatdan 600 manatadək, hüquqi şəxslərə isə 500 manatdan 2500 manatadək cərimə sanksiyalarının tətbiq edilməsi nəzərdə tutulmuşdur.

Şura QHT-lərin müstəqil maliyyə mənbələrinə malik olmadığını, onların fəaliyyətinin daha çox könüllülük prinsipinə söykəndiyini, əksər donorlar tərəfindən məcburi audit xərclərinin ödənilmədiyini, eləcə də qeyri-hökumət təşkilatlarının qanunvericiliyin tələblərinə uyğun şəffaflığı təmin etmək məqsədilə aldıqları maliyyə vəsaitlərinə dair müvafiq qurumlara hesabat verdiklərini nəzərə alaraq, 16 fevral 2011-ci il tarixdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Nazirlər Kabinetinə və Auditorlar Palatasına müraciət edərək, QHT-lərin məcburi auditin obyekti olan təsərrüfat subyektləri siyahısından çıxarılmasını xahiş etmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabineti **14 iyun 2011-ci il tarixli 96 saylı qərarı** ilə "Məcburi auditin obyekti olan təsərrüfat subyektləri üzrə "Daxili audit haqqında" Azərbaycan Respublikası Qanununun mərhələlərlə tətbiqi müddətləri"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 oktyabr 2007-ci il tarixli 155 nömrəli qərarında dəyişiklik edərək, QHT-ləri məcburi auditə cəlb olunan təsərrüfat subyektləri siyahısından çıxarmışdır.

**17 fevral 2011-ci ildə** Şura Beynəlxalq Mətbuat Mərkəzində "Azərbaycan QHT-lərinin Məsuliyyət Xartiyası"nın müzakirəsinə həsr olunmuş toplantı keçirdi. Xartiyada QHT fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkili, hesabat şəffaflığı, QHT sektorunda yüksək mədəniyyət və missiyaya sadiqlik kimi başlıca məsələ və prinsiplər öz əksini tapmışdır.

**16 mart 2011-ci ildə** Beynəlxalq Mətbuat Mərkəzində Şuranın hazırladığı "QHT fəaliyyətinin keyfiyyət standartları və sertifikatlaşdırma modeli" işçi sənəd üzrə ilkin təkliflərin müzakirəsi keçirildi. Bu sənədin hazırlanmasının məqsədi yerli qeyri-hökumət təşkilatlarının fəaliyyətinin daha da səmərəli qurulması, idarəetmənin təkmilləşdirilməsi və QHT fəaliyyətinin beynəlxalq müstəvidə qəbul edilmiş hüquqi və etik normalara uyğun şəkildə yerinə yetirilməsində təşkilatlara yardım etməkdən ibarətdir. Müzakirələrdə çıxış edən QHT rəhbərləri "QHT fəaliyyətinin keyfiyyət standartları və sertifikatlaşdırma modeli" sənədinin təşkilatlar arasında rəqabəti gücləndirməklə bərabər onların hərtərəfli inkişafına müsbət təsir göstərəcəyini, eyni zamanda bununla əlaqədar öz fikir və təkliflərini bildirdilər.

Şuranın maliyyələşdirdiyi layihələrin həyata keçirilməsinin effektivliyinin artırılması üçün layihə rəhbərləri və mühasibləri üçün layihələrin idarə olunması və hesabatların təqdim edilməsi mövzularında silsilə təlimlər keçirilmişdir:

- **13 aprel 2011-ci ildə** səhiyyə məsələləri və ətraf mühitin mühafizəsinə dair təşəbbüslər istiqamətində maliyyələşdirilən 28 QHT-nin,
- **15 aprel 2011-ci ildə** sosial məsələlərə dair təşəbbüslər istiqamətində maliyyələşdirilən 54 QHT-nin,
- **19 aprel 2011-ci ildə** təhsil məsələlərinə dair təşəbbüslər istiqamətində maliyyələşdirilən 30 QHT-nin,
- **21 aprel 2011-ci ildə** Azərbaycanın ərazi bütövlüyünün bərpası və erməni təcavüzündən zərər çəkənlərin hüquqlarının beynəlxalq səviyyədə qorunması təşəbbüsləri istiqamətində maliyyələşdirilən 17 QHT-nin,
- **22 aprel 2011-ci ildə** sosial məsələlərə dair təşəbbüslər istiqamətində maliyyələşdirilən 27 QHT-nin və
- **25 aprel 2011-ci ildə** mədəniyyət məsələlərinə dair təşəbbüslər istiqamətində maliyyələşdirilən 32 QHT-nin layihə rəhbərləri və mühasiblərinə təlimlər keçildi.

İki növbəli keçirilən təlimin birinci hissəsində iştirakçılara layihənin idarə olunması prosedurаları ilə bağlı təlimatları, layihənin icrasında diqqət yetirilməli əsas məqamlar, eləcə də layihənin icrasından effektli nəticələrin əldə edilməsi üçün təlimatlar verildi. Təlimin ikinci hissəsində QHT-də ilkin və mühasibat uçotunun təşkili və MMUS-un tələbləri, maliyyə vəsaitindən istifadə qaydaları, maliyyə hesabatlarının tərtibi, hesabatvermə, maliyyə hesabatının təsviri hesabatla uyğunluğu barədə təlim iştirakçılarına təlimatlar verildi.

Bu il Şura region QHT-lərinin bilik və bacarıqlarının artırılmasına da xüsusi diqqət yetirmiş və onlara müxtəlif mövzularda təlimlər təşkil etmişdir. Bu təlimlərdən biri də xarici fondların və donorların vəsaitlərinin Azərbaycana cəlb edilməsi sahəsində QHT-lərin bilik və bacarıqlarının artırılmasına həsr olunmuşdur. Təlimlər 26-29 iyul 2011-ci il tarixdə Mingəçevirdə, Şirvanda və Qəbələdə, növbəti təlimlər isə 3-5 avqust 2011-ci ildə Qubada və Şəmkirdə keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli 3043 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”nın həyata keçirilməsi üzrə Tədbirlər Planının (2011-2015-ci illər)” təsdiq edilməsi haqında Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2011-ci il tarixli 1578 nömrəli Sərəncamında Şuraya QHT-lərin fəaliyyətini tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilməsi, QHT-lərə dövlət büdcəsindən subsidiyanın ayrılması mexanizminin təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması, QHT-lərin müsbət təcrübəsinin yayılması və region QHT-lərinin inkişaf etdirilməsi kimi tədbirlərin həyata keçirilməsi həvalə edilmişdir:

Proqramdan irəli gələrək, Şura ölkənin regionlarında QHT-lərin müsbət təcrübəsinə həsr olunmuş müzakirələr və debatlar keçirmişdir. İlk tədbir avqustun 21-də Mingəçevirdə, daha sonra avqustun 23-də Qubada və Şəmkirdə, avqustun 25-də Şirvanda, avqustun 26-da isə Qəbələdə keçirilmişdir. Tədbirdə QHT fəaliyyətinin əhəmiyyəti, QHT-lərə dövlət dəstəyi, QHT-lərin qanunvericilik bazası, QHT layihələri və QHT-lərə aid digər məsələlər barədə ictimaiyyətə geniş məlumatlar verilmişdir.

**05 oktyabr 2011-ci** ildə Şuranın korrupsiyaya qarşı mübarizə mövzusunda maliyyələşdirdiyi layihələrin icra vəziyyətinə həsr olunmuş məlumatlandırma sessiyası təşkil edilmişdir. Korrupsiya mövzusunda layihə reallaşdıran 11 QHT rəhbərinin iştirakı ilə keçirilən tədbirdə layihələrin icra vəziyyəti, aralıq dövr üçün əldə olunan nəticələr müzakirə edilmiş və layihələrin effektiv həyata keçirilməsi üçün fikir mübadiləsi aparılmışdır.

Şuranın hazırladığı “QHT Məsuliyyət Xartiyası” və “QHT fəaliyyətinin keyfiyyət standartları və sertifikatlaşdırma modeli” sənədləri paytaxt QHT-ləri ilə yanaşı ölkənin regionlarında fəaliyyət göstərən təşkilatlarla da geniş müzakirə edilmişdir. Bu məqsədlə **07 oktyabr 2011-ci il** Xaçmaz şəhərində yerli QHT rəhbərlərinin iştirakı ilə “QHT Məsuliyyət Xartiyası” və “QHT fəaliyyətinin keyfiyyət standartları və sertifikatlaşdırma modeli” sənədlərinin geniş müzakirəsi keçirilmişdir. Tədbirdə yerli QHT-lərin müzakirəsinə təqdim olunan bu sənədlərin hazırlanmasında əsas məqsəd qeyri-hökumət təşkilatlarının fəaliyyətini daha da səmərəli qurmaq, QHT idarəetməsini təkmilləşdirmək və QHT fəaliyyətinin beynəlxalq müstəvidə qəbul edilmiş hüquqi və etik normalara uyğun şəkildə yerinə yetirilməsində QHT-lərə yardım etməkdən ibarət olduğu bildirilmişdir. Müzakirələrdə çıxış edən QHT rəhbərləri sənədləri bəyəndiklərini və onların yerli təşkilatlar tərəfindən qəbul edilib imzalanacağını bildirmişlər. Analoji müzakirələr **10 oktyabr 2011-ci ildə Şəkidə**, **20 oktyabr 2011-ci il də Gəncədə** təşkil edilmişdir.

## • Maliyyə dəstəyi

Şura tərəfindən maliyyələşdirilmiş layihələrin həyata keçirilməsi Azərbaycanın ictimai sektorunda böyük canlanma yaratmış, vətəndaş cəmiyyəti quruculuğunun mühüm nəzəri və praktiki məsələlərinin cəmiyyətdə yenidən qabardılmasına təkan vermiş, milli donor institutunun formalaşması yolunda atılmış real addımların böyük əhəmiyyətini nümayiş etdirmişdir.

İlin I rübündə Şuranın 2011-ci ilin birinci maliyyə yardımı müsabiqəsinə yekun vurulmuşdur. 6 dekabr 2010-cu ildə elan edilmiş maliyyə yardımı müsabiqəsinə ümumilikdə 425 QHT-dən layihə təklifi daxil olmuşdur. Onlardan 69-nun texniki sənədləşməsi Şuranın tələblərinə cavab vermədiyi üçün ilkin seleksiya mərhələsində müsabiqədən uzaqlaşdırılmış, 28 QHT isə Şura ilə 2010-cu ildə imzaladığı müqavilə öhdəliklərini kobud şəkildə pozduğuna görə müsabiqənin növbəti mərhələsinə buraxılmamışdır. Beləliklə, 328 layihə təklifi ekspertizaya göndərilmişdir. Müsabiqə şərtlərinə uyğun olaraq, 2009-cu ildəki fəaliyyəti haqqında Maliyyə Nazirliyinə

hesabat təqdim etməyən 20 QHT-nin layihə təkliflərinin maliyyələşdirilməsindən imtina edilmişdir. 202 layihənin maliyyələşdirilməsi barədə isə qərar qəbul olunmuşdur.

2011-ci ili aprel ayında Şura korrupsiya ilə mübarizə sahəsində QHT layihələrinin maliyyələşdirilməsi üçün müsabiqə elan etmişdir. 15 aprel 2011-ci ildə elan olunmuş və mayın 6-dək davam edən müsabiqəyə 51 layihə təklifi daxil olmuşdur. Ümumi fondu 50 000 manat olan müsabiqədə bütövlükdə QHT-lərin Şuradan tələb etdiyi məbləğ 415 000 manat təşkil etmişdir. Şura ekspert rəylərini və QHT-lərin əvvəlki illərdə həyata keçirdiyi layihələrin icra vəziyyəti haqqında Katibliyin hazırladığı arayışları nəzərə alaraq, 11 layihənin maliyyələşdirilməsi barədə qərar qəbul etmişdir.

2011-ci ilin may ayında Şura turizm mövzusunda müsabiqə elan etmişdir. 16 may 2011-ci ildə turizm mövzusunda elan edilmiş müsabiqəyə 55 QHT-dən layihə təklifi daxil olmuşdur. 9 QHT-nin layihə sənədləri Şuranın tələblərinə cavab vermədiyi üçün ilkin seleksiya mərhələsində müsabiqədən uzaqlaşdırılmış, 46 layihə təklifi isə ekspertizaya göndərilmişdir. Şura ekspert rəylərini və QHT-lərin əvvəlki illərdə həyata keçirdiyi layihələrin icra vəziyyəti haqqında Katibliyin hazırladığı arayışları nəzərə alaraq, 28 layihənin maliyyələşdirilməsi barədə qərar qəbul etmişdir. Müsabiqənin ilkin fondu 80.000 manat təşkil etsə də Şura mövzunun və layihələrin aktuallığını nəzərə alaraq, bu məbləğə daha 30.000 manat əlavə etmişdir. Beləliklə, Şuranın 01 iyul 2011-ci ildə keçirdiyi iclasda turizm mövzusunda 28 layihənin maliyyələşməsi üçün 110 min manat vəsaitin ayrılması barədə qərar qəbul edilmişdir.

07 sentyabr 2011-ci ildə Şura növbəti maliyyə yardımı müsabiqəsinə yekun vurdu. Şuranın 01 iyul 2011-ci ildə QHT layihələrinin maliyyələşdirilməsi üçün elan etdiyi növbəti maliyyə yardımı müsabiqəsinə 147 QHT-dən layihə təklifi daxil olmuşdur. Onlardan 27-nin texniki sənədləşməsi Şuranın tələblərinə cavab vermədiyi üçün ilkin seleksiya mərhələsində müsabiqədən uzaqlaşdırılmış, 120 layihə təklifi ekspertizaya göndərilmişdir. Şura ekspert rəylərini və QHT-lərin əvvəlki illərdə həyata keçirdiyi layihələrin icra vəziyyəti haqqında Katibliyin hazırladığı arayışları nəzərə alaraq, 48 layihənin maliyyələşdirilməsi barədə qərar qəbul etmiş və bu layihələrin maliyyələşməsi üçün 165700 manat vəsait ayırmışdır.

Milli QHT, dövlət orqanlarının və beynəlxalq təşkilatların nümayəndələri olan 24 nəfər ekspertin iştirakı ilə layihələrin ekspertizası təşkil edilmiş və layihə təkliflərinin hər biri ayrı-ayrılıqda 2 müxtəlif ekspert tərəfindən qiymətləndirilmişdir.

2011-ci ildə maliyyə yardımının istiqamətləri, müsabiqə fondu, maliyyələşən layihələrin sayı barədə məlumat aşağıdakı cədvəldə verilmişdir:

| N | Müsabiqənin istiqamətləri | Şuranın ayırdığı məbləğ | Maliyyələşən layihələrin sayı |
|---|---|---|---|
| 1. | İnsan hüquqları və demokratiya | 307.614,0 | 36 |
| 2. | Azərbaycanın ərazi bütövlüyünün bərpası və erməni təcavüzündən zərər çəkənlərin hüquqlarının beynəlxalq səviyyədə qorunması istiqamətində təşəbbüslər | 125.500,0 | 18 |
| 3. | Təhsil məsələlərinə dair təşəbbüslər | 249.188,0 | 35 |
| 4. | Mədəniyyətə dair təşəbbüslər | 180.485,0 | 25 |
| 5. | Səhiyyə məsələlərinə dair təşəbbüslər | 157.479,0 | 22 |
| 6. | Ətraf mühitin mühafizəsinə dair təşəbbüslər | 80.500,0 | 17 |
| 7. | Region QHT-lərinin təşəbbüslərinin dəstəklənməsi | 294.351,0 | 41 |

| | | | |
|---|---|---|---|
| 8. | Sosial məsələlərə dair təşəbbüslər | 324.599,0 | 57 |
| 9. | İctimai davranış qaydalarının təkmilləşməsinə dair təşəbbüslər | 18.650,0 | 6 |
| 10. | Ailə institutunun güclənməsinə dair təşəbbüslər | 27.200,0 | 8 |
| 11. | Dövlət rəmzlərinin təbliğinə dair təşəbbüslər | 21.800,0 | 7 |
| 12. | Azərbaycanla əlaqədar xarici ölkələrdə tədbirlərin təşkili | 37.500,0 | 9 |
| 13. | Gənclərin İKT imkanlarından daha səmərəli istifadə etməsinə dair təşəbbüslər | 60.550,0 | 18 |
| 14. | Korrupsiya ilə mübarizə sahəsində təşəbbüslərə dəstək | 50.000.0 | 11 |
| 15. | 2011-ci il - "Turizm ili" çərçivəsində QHT layihələrinə dəstək | 110.000.0 | 28 |
| | **Cəmi** | **2.045.416** | **338** |




## Cari fəaliyyət

- **Şuranın iclasları**

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası haqqında Əsasnamənin 4.7 bəndinə müvafiq olaraq Şura mütəmadi şəkildə öz iclaslarını keçirmişdir. **2011-ci ildə Şuranın 18 iclası** olmuşdur. Bu iclaslarda Şuranın fəaliyyətinin səmərəli təşkili, maliyyə yardımı müsabiqələrinin keçirilməsi, müsabiqələrin nəticələri, beynəlxalq təşkilatlarla əməkdaşlıq və birgə qrant müsabiqələri, Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyasından irəli gələn digər məsələlər müzakirə edilmiş və müvafiq qərarlar qəbul edilmişdir.

- ## Qanunvericiliyin təkmilləşdirilməsi

QHT qanunvericiliyinin təkmilləşdirilməsi üçün Şura 2011-ci ildə mühüm işlər həyata keçirmişdir. Belə ki, Şuranın sifarişi ilə "Sosial sifariş haqqında", "Peşə cəmiyyətləri haqqında", "Korporativ sosial məsuliyyət haqqında" və "İctimai iştirakçılıq haqqında" qanun layihələrinin hazırlanması üçün işçi qruplar yaradılmışdır. **25 aprel 2011-ci ildə** ictimai sektorun fəaliyyətinin tənzimlənməsi üçün bir sıra yeni qanun layihələri hazırlayan işçi qrup rəhbərlərinin birgə toplantısı keçirildi. İclasda Şura sədri ictimai sektorun fəaliyyətinə aid yeni qanun layihələrinin hazırlanması üçün qarşıda duran vəzifələr haqqında məlumat verdi. **Sosial sifariş haqqında** (Sahib Məmmədov, Vətəndaşların Əmək Hüquqlarının Müdafiə Liqası İcraiyyə Komitəsinin sədri), **Peşə cəmiyyətləri haqqında** (Adil Vəliyev, Milli Məclisin əmək qanunvericiliyi sektorunun müdiri), **Korporativ sosial məsuliyyət haqqında** (İsrail İsgəndərov, "Ümid" Humanitar-Sosial Dayaq Mərkəzinin icraçı direktoru), **İctimai iştirakçılıq haqqında** (Əliməmməd Nuriyev, Konstitusiya Araşdırmaları Fondunun prezidenti) qanunların ölkədə ictimai sektorun fəaliyyətinin tənzimlənməsi və inkişafı baxımından mühüm əhəmiyyət daşıyacağı bildirildi.

**01 noyabr 2011-ci ildə** "Park İnn" otelində hökumət nümayəndələri, Milli Məclisin deputatları, beynəlxalq təşkilatlar və yerli QHT təmsilçilərinin iştirakı ilə "İctimai iştirakçılıq haqqında" və "Peşə cəmiyyətləri haqqında" qanun layihələri müzakirə edilmişdir. Dəyirmi masada Şura sədri qanun layihələrinin ictimai fəaliyyət üçün böyük əhəmiyyət kəsb etdiyini və onların QHT qanunvericiliyinin möhkəmləndirilməsində müsbət rol oynayacağını vurğulamış və Şura tərəfindən yaradılmış işçi qrupların qanun layihələrini daha da təkmilləşdirməsi üçün ictimai müzakirələrin davam etdiriləcəyini bildirdi. "Peşə cəmiyyətləri haqqında" və "İctimai iştirakçılıq haqqında" qanun layihələrini müvafiq işçi qrupların rəhbərləri Milli Məclis aparatının sektor müdiri Adil Vəliyev və Konstitusiya Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev təqdim etdilər. Müzakirələrdə çıxış edən Milli Məclisin deputatları, eləcə də dövlət qurumları, beynəlxalq və yerli QHT təmsilçiləri qanun layihələrinə aid təklif və tövsiyələrini bildirdilər.

**22 dekabr 2011-ci ildə** Beynəlxalq Mətbuat Mərkəzində Milli Məclisin deputatları, beynəlxalq təşkilatlar, biznes qurumları, yerli QHT və media təmsilçilərinin iştirakı ilə "Sosial sifariş haqqında" qanun layihəsi və Korporativ Sosial Məsuliyyət Xartiyası müzakirə edildi. "Sosial sifariş haqqında" qanun layihəsini müvafiq olaraq işçi qrupun rəhbəri Sahib Məmmədov, Korporativ Sosial Məsuliyyət Xartiyasını isə İsrail İsgəndərov təqdim etdilər. Tədbirdə çıxış edən Milli Məclisin deputatları, beynəlxalq təşkilatların təmsilçiləri və QHT rəhbərləri müzakirəyə çıxarılmış sənədlərin vətəndaş cəmiyyətinin inkişafında mühüm rol oynayacağını qeyd edərək təqdim edilmiş sənədlər haqqında öz fikir və təkliflərini bildirdilər.

- ## Digər tədbirlər

İl ərzində QHT sektorunun inkişafına yönəlmiş, həmçinin QHT sektorunun iştirakı ilə reallaşdırılan bir sıra ictimai əhəmiyyətli məsələlərə həsr olunmuş aşağıdakı silsilə tədbirlər həyata keçirilmişdir:

**26 yanvar 2011-ci ildə** Beynəlxalq Mətbuat Mərkəzində Şuranın 2010-cu il fəaliyyətinə həsr olunmuş hesabat konfransı keçirilmişdir. Milli QHT-lərin, beynəlxalq təşkilatların və KİV nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə Şuranın 2010-cu il fəaliyyəti haqda ictimaiyyətə məlumatlar verilmiş və Şuranın maliyyə dəstəyi ilə həyata keçirilən layihələrin nəticələri geniş müzakirə edilmişdir. Şuranın 2010-cu ildə maliyyələşdirdiyi layihələrə dair çap olunmuş kitab iştirakçılar arasında paylanmışdır. Konfransda ötən ilin nailiyyətlərinə görə fərqlənmiş 5 QHT-yə

- Sülh Mədəniyyəti Naminə Gənclər İctimai Birliyi, “İnam” Plüralizm Mərkəzi, Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu İctimai Birliyi, “Nurlu sabah” Uşaq Gənclər Təşkilatı İctimai Birliyi, Azəri-Türk Qadınlar Birliyinə Şuranın qiymətli mükafatları təqdim edildi.

**13 oktyabr 2011-ci ildə** Şura “Azərbaycan QHT sektoru dövlət müstəqilliyinin 20 ilində” mövzusunda dəyirmi masa keçirmişdir. Beynəlxalq mətbuat Mərkəzində təşkil olunmuş bu tədbirdə məruzə ilə çıxış edən Şura sədri Azərbaycan QHT sektorunun 20 il ərzində keçdiyi çətin, eyni zamanda şərəfli bir inkişaf yolundan bəhs etmiş, 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə ictimai sektorun inkişafına xüsusi diqqət yetirildiyini, bu məqsədlə BMT İnkişaf Proqramı ilə Azərbaycan hökumətinin birgə həyata keçirdiyi “Azərbaycanda vətəndaş cəmiyyətinin gücləndirilməsi” proqramının rolunu qeyd edərək, yerli QHT resurs mərkəzlərinin yaradılmasını və QHT qanunvericiliyinin möhkəmləndirildiyini xüsusi qeyd etmişdir. 2007-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə “Azərbaycan qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası”nın təsdiq edilməsi və konsepsiya əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılmasının ölkə QHT-lərinin inkişafında yeni mərhələ açdığı bildirilmişdir. Tədbirdə Milli Məclisin deputatları, dövlət və QHT nümayəndələri çıxış edərək Azərbaycan QHT-lərinin yaranma və inkişaf tarixi haqqında öz xatirə və fikirlərini bölüşmüşlər. Tədbirdə, həmçinin, dövlət müstəqilliyimizin 20 illiyi münasibətilə Şuranın nəşr etdiyi “Azərbaycan QHT sektoru dövlət müstəqilliyinin 20 ilində” kitabının təqdimatı olmuşdur.

**09 dekabr 2011-ci ildə** Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ulu öndər Heydər Əliyevin xatirəsini anım günü münasibətilə tədbir keçirdi. Tədbirdə çıxış edən Şura sədri ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti və Azərbaycan xalqı qarşısındakı böyük xidmətlərindən danışdı. Ümummilli liderin ölkədə vətəndaş cəmiyyətinin inkişafına göstərdiyi qayğı və diqqəti xatırlayan Şura sədri 90-cı illərdə ictimai sektorun formalaşdırılması istiqamətində atılmış ilk addımlarda, QHT qanunvericilik bazasının yaradılmasında ulu öndər Heydər Əliyevin məsləhət və tövsiyələrinin böyük əhəmiyyət kəsb etdiyini qeyd etdi. Mərasimdə xalq şairi Zəlimxan Yaqubun “Əbədiyyət dastanı” poemasının Şuranın dəstəyilə hazırlanmış audiodiski təqdim olundu. Tədbirdə çıxış edən millət vəkilləri Fəttah Heydərov, Eldar İbrahimov, Mübariz Qurbanlı, Musa Quliyev ulu öndər Heydər Əliyevlə bağlı xatirələrini danışdı, ümummilli liderin siyasi irsinin, həyat və fəaliyyətinin öyrənilməsinin, layiqincə təbliğ olunmasının mühüm əhəmiyyət daşıdığını və bu işə ölkə QHT-lərinin cəlb edilməsinin vacibliyini qeyd etdilər.

## Beynəlxalq əlaqələr

- **Görüşlər**

Ölkədə QHT sektorunun beynəlxalq standartlara cavab verən səviyyədə inkişafını təmin etmək, xarici dövlətlərin analoji qurumlarının təcrübəsini öyrənmək məqsədilə Şura beynəlxalq təşkilatlarla əməkdaşlığa böyük önəm vermişdir.

**12 yanvar 2011-ci ildə Çin səfiri** cənab Zan Yannianla, **fevralın 4-də** Avropa Hüquq Tələbələri Assosiasiyasının (ELSA) Brüsseldəki baş qərargahının rəhbəri Oskar Lema Buza və onu müşayiət edən bir qrup gənclər, **fevralın 8-də** Avropa İttifaqının Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri səfir Roland Kobia, **fevralın 14-də** İraqın Azərbaycandakı səfiri Heydər Əl-Barrak, **martın 9-da** ABŞ Beynəlxalq İnkişaf Agentliyinin layihə rəhbəri Kristofer Şilds, **martın 17-də** Beynəlxalq Amnistiya Təşkilatının Avropa və Mərkəzi Asiya Proqramının direktor müavini Con Dalhusen və Proqramın tədqiqatçı eksperti

Nataliya Nozadze, **06 aprel 2011-ci il**də Türkiyənin Mərmərə Bələdiyyələr Birliyi rəhbərlərindən ibarət nümayəndə heyəti, Mərmərə Bələdiyyələr Birliyi idarə heyətinin üzvü Səlim Yağçı, Türkiyə Bələdiyyələr Birliyi idarə heyətinin üzvü Osman Yılmaz, Mərmərə Bələdiyyələr Birliyinin Avropa Birliyi və beynəlxalq əlaqələr üzrə direktoru Murat Daudov və Mərəmərə Bələdiyyələr Birliyinin əməkdaşı İsgəndər Günəş, **21 aprel 2011-ci il** Norveçin Azərbaycandakı Səfirliyinin I katibi Lars Ragner Hansen, Norveç Beynəlxalq İnsan hüquqları Evinin icraçı direktoru Mariya Dahle, Norveç Beynəlxalq İnsan Hüquqları Evinin Şərqi Avropa və Qafqaz üzrə regional meneceri Ani Tusviq Bonde, **18 may 2011-ci ildə** ABŞ Beynəlxalq İnkişaf Agentliyinin Azərbaycandakı missiyasının yeni direktoru cənab Maykl Qrin, **09 iyun 2011-ci** ABŞ Milli Demokratiya İnstitutunun (MDİ) Avrasiya proqramları üzrə regional direktoru xanım Laura Jevet, ölkə üzrə direktoru Aleks Qriqoryev, baş proqram rəhbəri Marko İvkoviç və ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAİD) demokratiya və idarəçilik ofisinin rəhbəri Fey Haselkorn, **30 iyun 2011-ci ildə** Asiya İnkişaf Bankının Azərbaycandakı Daimi Nümayəndəliyinin rəhbəri Olli Noroyono, **04 iyul 2011-ci ildə** Avropa İttifaqının (Aİ) himayəsi və Qara dəniz-Xəzər dənizi əməkdaşlığı və tərəfdaşlığı üzrə beynəlxalq fondun təşkilatçılığı ilə "Müasir Azərbaycanda vətəndaş cəmiyyətinin rolu" mövzusunda monitorinq aparmaq məqsədilə ölkəmizdə səfərdə olan bir qrup ekspertləri, Qrupun tərkibi Marius Opran (Fondun Brüsseldəki nümayəndəliyinin direktoru, Aİ-nin Avropa iqtisadi və sosial komitəsinin üzvü, Rumıniyanın sabiq dövlət idarəçiliyi və daxili işlər naziri), Brayan Kassidi (Aİ-nin Avropa iqtisadi və sosial komitəsinin daxili bazar, istehsal və istehlak bölməsinin rəhbəri, Avropa Parlamentinin sabiq üzvü), Amanda Paul Akçakoça (Brüsseldə fəaliyyət göstərən Avropa Siyasi Mərkəzinin müstəqil siyasi analitiki, "Aİ qonşuluğu forumu"nun əlaqələndiricisi), Felicia Skoartsa, **29 sentyabr 2011-ci ildə** Bolqarıstan Səhiyyə Hüquqlarının Müdafiəsi Mərkəzinin direktoru xanım Teodora Zahariyevanın rəhbərliyi ilə Bolqarıstan QHT-lərinin nümayəndələri, **14 oktyabr 2011-ci ildə** Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycan üzrə nümayəndəsi xanım Aliyə Əzimova, **11 noyabr 2011-ci ildə** Şurada BMT İqtisadi-Sosial Şurasının (ECOSOC) QHT-lər üzrə bölməsinin rəhbəri cənab Andrey Abramov, **4 noyabr 2011-ci ildə** Avropa Şurasının Azərbaycandakı ofisinin rəhbəri səfir Konstantin Yerokostopulos və digərləri Şurada qəbul edilmişdir.

Bu görüşlərdə qonaqlara Şuranın yaranması, son illərdə görülmüş işlər, QHT-lərin proqram və layihələrinin dövlət tərəfindən maliyyələşdirilməsi haqqında ətraflı məlumat verilmiş, qarşılıqlı əməkdaşlıq barədə fikir mübadiləsi aparılmışdır.

## Səfərlər

31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Türkiyənin Iğdır şəhərində keçirilən konfransda Şura sədri iştirak etmişdir. Türkiyə Azərbaycan Dərnəyi (TAD) və Türkiyə Beynəlxalq Əlaqələr və Strateji Analizlər Mərkəzinin (TÜRKSAM) təşkilatçılığı və İğdır şəhər valisinin dəstəyi ilə "Iğdır və bölgədə Azərbaycan türklərinə qarşı soyqırımlar və erməni iddiaları" mövzusunda keçirilən konfransda çıxış edən Şura sədri yalnız keçmişdə bizə qarşı edilən soyqırımları xatırlamaqla kifayətlənməməyi və bundan sonra erməni iddialarına qarşı həyata keçirilməsi zəruri olan tədbirlər haqqında danışıb. Azərbaycanın bu istiqamətdə həm dövlət, həm də ictimai qurumlar səviyyəsində yerinə yetirdiyi işlərin əhəmiyyətini qeyd edilərək, Ermənistandakı Metsamor Atom Elektrik Stansiyasının bölgə üçün böyük təhlükə olduğu, buna görə də onun bağlanmasının zəruriliyini vurğulanmışdır. Şura sədri Yaponiyada Fukuşimo AES-də baş verən məlum hadisədən sonra belə bir qəzalı vəziyyətdə olan Atom Elektrik Stansiyasının fəaliyyətinin dayandırılmasında dünya ictimaiyyətinin maraqlı olmasının vacibliyini önə çəkib.

Belçika-Azərbaycan Dostluq Cəmiyyətinin təşkilatçılığı, Avropa Birliyi nəzdində "Global Commication" təşkilatının dəstəyi ilə və Avropa Parlamentinin nüfuzlu deputatlarından

olan Böyük Britaniyalı Qraham Vatsonun rəhbərliyi ilə **may ayının 25-də** Avropa Parlamentində "Avropa İttifaqı-Azərbaycan münasibətləri: geosiyasi perspektivlər" mövzusunda dəyirmi masa keçirilmişdir. Tədbirə Avropa Parlamentinin üzvləri - Qraham Vatson (İngiltərə), İnese Vaidere (Litva), İsmayıl Ertuğ (Almaniya), Yevgeni Krılov (Bolqarstan) və katibliyin rəsmiləri, Brüsseldəki diplomatik korpusun təmsilçiləri, yerli ictimaiyyət və KİV nümayəndələri qatılmışlar.

Tədbirdə iştirak etmiş Şura sədri Avropa İttifaqı-Azərbaycan münasibətlərinin inkişafı sahəsində görülən işləri və əldə olunmuş nailiyyətləri iştirakçıların diqqətinə çatdırmış və Avropa Qonşuluq Siyasəti, xüsusilə, Şərq Tərəfdaşlığının təqdim etdiyi yeni əməkdaşlıq perspektivlərini qeyd etmişdir. Şura sədri Ermənistanın Azərbaycana qarşı yeritdiyi təcavüzkar və etnik təmizlə siyasətinin doğurduğu ağır nəticələri vurğulamış və Avropalı həmkarlarını münaqişənin beynəlxalq hüquq prinsipləri əsasında tezliklə həllinə dəstək verməyə çağırmışdır. Şura sədri, həmçinin, Avropa Parlamentinin 12 may 2011-ci ildə Azərbaycanla əlaqədar qəbul etdiyi qətnamənin ölkəmizdə təəccüb və narahatlıq doğurduğunu bildirərək, Milli Məclisin bununla əlaqədar müraciətini diqqətə çatdırmışdır.

**21 iyun 2011-ci ildə** Şura sədri Avropa İttifaqı və ICNL təşkilatının "QHT–hökumət əməkdaşlığının effektiv modeli" mövzusunda keçirdiyi regional konfransda iştirak etmək üçün Macarıstanın paytaxtı Budapeşt şəhərinə ezam olunmuşdur. Avropa Birliyi ölkələrinin QHT, hökumət nümayəndələrinin, beynəlxalq təşkilatların təmsilçilərinin iştirak etdiyi konfransda "Azərbaycanda QHT-hökumət əməkdaşlığı" mövzusunda təqdimatla çıxış edən Şura sədri Azərbaycanda QHT sektorunun inkişaf dinamikası, QHT-hökumət münasibətlərinin yeni mərhələsi, QHT-lərə dövlət dəstəyinin əsas istiqamətləri, QHT qanunvericiliyi, QHT-lərin dövlət proqramlarında iştirakı, QHT-lərin maliyyələşdirilməsi mexanizmləri və qaydaları, layihələrin qiymətləndirmə prosedurları haqqında geniş məlumat vermişdir. Təqdimatdan sonra Şura sədri konfrans iştirakçılarının çoxsaylı suallarını cavablandırıb. Dövlət büdcəsindən QHT-lərin maliyyələşdirilməsinin Azərbaycan modeli konfrans iştirakçılarının böyük marağına səbəb olub və Avropanın ən yaxşı nümunələrindən biri kimi qiymətləndirilib.

Tədbirdə qeyd edilmişdir ki, QHT maliyyələşdirilməsinin Azərbaycan modeli bir sıra Avropa ölkələri ilə müqayisədə daha effektiv və üstün xüsusiyyətlərə malikdir. Şuranın müsabiqə qaydaları, seçim meyarları, layihə qiymətləndirməsinin mərhələləri, layihələrin və ekspertlərin kodlaşdırılması, apelyasiya komissiyasının fəaliyyəti Avropanın analoji qurumlarının təmsilçiləri tərəfindən əsl örnək kimi qəbul edilmişdir. Tədbirdə Monteneqro, Ukrayna, Gürcüstan və Bolqarıstan təmsilçiləri Şura sədrinə müraciət edərək, Azərbaycan təcrübəsinin yaxından öyrənilməsi və gələcək əməkdaşlıq əlaqələrinin yaradılması üçün ölkəmizə səfər etmək istədiklərini bildirmişlər.

- ## Tərəfdaşlıq

**08 fevral 2011-ci ildə** Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri ilə Avropa İttifaqının Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri səfir Roland Kobia arasında görüş keçirilmişdir. Görüşdə Şura sədri Azərbaycanda ictimai sektorun inkişafı ilə bağlı həyata keçirilən dövlət siyasətinin prioritetləri haqqında danışaraq, ölkə QHT-lərinə dövlət dəstəyini reallaşdıran Şuranın son 3 ildə gördüyü işlər barədə Avropa İttifaqı nümayəndəliyinin rəhbərinə məlumat verdi. Ötən illərdə Şuranın Azərbaycanda fəaliyyət göstərən bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlığı haqqında məlumat verilərək, Avropa İttifaqı ilə də belə əlaqələrin vətəndaş cəmiyyətinin inkişafına töhfə verə biləcəyini bildirdi.

Səfir R.Kobia Şuranın fəaliyyətini müsbət qiymətləndirdiyini qeyd edərək, Avropa İttifaqının son illər QHT-lərin proqram və layihələrinə maliyyə dəstəyi verdiyini diqqətə çəkdi. Səfir, həmçinin, Avropa İttifaqının müvafiq qurumlarının təkcə hökumət strukturları ilə deyil, QHT-lərlə də sıx əməkdaşlıq etməkdə maraqlı olduğunu vurğuladı. Yekunda Şura ilə Avropa İttifaqı arasında əməkdaşlığın konkret istiqamətlərinin müəyyənləşdirilməsi haqqında razılığa gəlindi.

Şura Avropa İttifaqının Azərbaycan nümayəndəliyinə təcrübə və informasiya mübadiləsi məqsədilə analoji qurumlara səfərlərin təşkili, regionlarda vətəndaş cəmiyyəti mərkəzlərinin fəaliyyətinin gücləndirilməsi, QHT portalının yaradılması, QHT standartlarının hazırlanması, 2010-2015-ci illər üzrə vətəndaş cəmiyyətinin gücləndirilməsi üçün milli strategiyanın və fəaliyyət planının hazırlanması, QHT sektorunu tənzimləyən bəzi qanunların hazırlanmasına dəstəyin verilməsi, QHT-özəl sektor arasında əməkdaşlığın təşviq edilməsi məqsədi ilə müxtəlif tədbirlərin təşkili və Şuranın saytın ingilis dilində tərcüməsi məsələlərində əməkdaşlıq təkliflərini etmişdir:

## Yekun

2011-ci ildə Şura Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyasından irəli gələn məsələlərin həlli istiqamətində daha bir addım ataraq, ölkəmizdə vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi işinə öz töhfəsini vermişdir. Növbəti illərdə Şura beynəlxalq tərəfdaşlarla birgə qrant müsabiqələrinin davam etdirilməsini, milli QHT-lərin idarəçilik təcrübəsinin zənginləşdirilməsini, habelə QHT fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması üçün hazırlanmış QHT standartlarının təkmilləşdirilməsi, QHT sektoru haqqında milli hesabatın yeniləşdirilməsi, vətəndaş cəmiyyətinin gücləndirilməsi üçün milli strategiyanın və fəaliyyət planının hazırlanması və digər bu kimi vacib məsələlərin reallaşdırılmasını nəzərdə tutur.